**"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 8, maddə 603; 2006, 6, maddə 482; 2007, 8, maddə 745; 2008, 3, maddə 154; 2009, 12, maddə 948; 2011, 11, maddə 983; 2012, 6, maddə 509, 7, maddə 668, 11, maddə 1053; 2013, 6, maddələr 607, 623, 7, maddə 791, 12, maddə 1484; 2014, 1, maddə 7, 2, maddə 97, 6, maddələr 597, 604; 2015, 3, maddə 255; 2016, 4, maddə 645, 6, maddə 990, 7, maddə 1244, 11, maddələr 1770, 1775) aşağıdakı dəyişikliklər edilsin:

1. 9.2-ci maddənin birinci cümləsində "verir" sözü "tərtib edir" sözləri ilə əvəz edilsin.

2. 9.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ərizənin sürətləndirilməklə icra edilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

3. 12.1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hüquq sahibinin istəyi əsasında çıxarış kağız formada təqdim olunur, yaxud elektron imza ilə təsdiqlənməklə "Elektron Hökumət" portalında yerləşdirilərək hüquq sahibinin elektron üsulla əldə etməsi imkanı təmin olunur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 aprel 2017-ci il
641-VQD